*UOT 74.03*

***Əfsanə Elşad qızı Əlizadə Hüseynli***
*Naxçıvan Müəllimlər İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0009-0006-7410-5974*
*E-mail: AlizadeEfsane@nmi.edu.az*
*https://doi.org/10.69682/arti.2025.92(5).216-219*

# İRƏVANDA TƏHSİLİN İNKİŞAFINDA LƏK-LƏK JURNALININ ROLU

***Afsana Elshad Alizadeh Huseynli***
*doctorial student in the program of doctor of philosophy*
*at Nakhchivan Teachers' Institute*

# THE ROLE OF LAK-LAK JOURNAL IN THE DEVELOPMENT OF EDUCATION IN IRAVAN

***Афсана Эльшад гызы Ализаде Гусейнли***
*докторант по программе доктора философии*
*Нахчыванского Института Учителей*

# РОЛЬ ЖУРНАЛА «ЛЕК-ЛЕК» В РАЗВИТИИ ОБРАЗОВАНИЯ В ИРЕВАНЕ

**Xülasə.** Qədim Azərbaycan torpaqlarından olan İrəvanda maarif və mədəniyyətin inkişafında Azərbaycan ziyalıları önəmli rol oynamışdır. Bu şəhər dövrünün aparıcı elm mərkəzlərindən biri olmaqla yanaşı, həm də maariflənmə hərəkatının mühüm ocaqlarından hesab edilirdi. İrəvanda pedaqoji mühitin formalaşmasında savadlı Azərbaycan ziyalılarının və elm adamlarının rolu danılmazdır. Bu məqalə "Lək-lək" satirik jurnalının Azərbaycan maarifçiliyi və mətbuat tarixi baxımından önəmini araşdırır. "Lək-lək" jurnalı "Molla Nəsrəddin" ənənələrinə sadiq qalaraq, Azərbaycanda milli təhsilin və ana dili məktəblərinin inkişafını təbliğ etmişdir. Jurnal satirik dillə geriliyi, savadsızlığı tənqid etməklə yanaşı, eyni zamanda cəmiyyətdə gedən siyasi və sosial proseslərə işıq tuturdu. Tədqiqatın aparılmasında əsas məqsəd jurnalın nəşr olunduğu dövrün ictimai və siyasi mühitini, jurnalın məzmununun cəmiyyətə təsirini və maarifçilik ideyalarının yayılmasında oynadığı rolu dəyərləndirmək olmuşdur.

Bu araşdırmada "Lək-lək" jurnalının maarifçilik və təhsil sahəsindəki rolunu təhlil etmək üçün keyfiyyət tədqiqat metodlarından istifadə edilmişdir. Araşdırma əsasən tarixi-sosioloji yanaşma üzərində qurulmuş, mənbə analizi metodu ilə jurnal nömrələri, dövrün ictimai və siyasi vəziyyəti, habelə Azərbaycan mətbuat tarixindəki rolu öyrənilmişdir. Tədqiqat çərçivəsində jurnalın satirik məzmunu və onun ictimai dəyişikliyə təsiri diskurs analiz vasitəsilə araşdırılmış, eyni zamanda maarifçilik ənənələri baxımından qiymətləndirilmişdir. Habelə, jurnalın dövründəki sosial-mədəni şəraiti, onun özünəxas səciyyəvi cəhətləri və milli kimliyin formalaşmasına təsiri üçün mətbuat tarixində aparılan araşdırmaların nəticələrinə istinad edilmişdir.
***Açar sözlər:*** *Elm, Azərbaycan dili, Lək-Lək, Qərbi Azərbaycan, maarifçilik.*

**Abstract.** The socio-political and cultural changes that took place in Yerevan at the end of the 19th century, the publishing of textbooks and books by prominent educators in the Azerbaijani language were among the interesting events of that period. Those publications had a positive impact on the lives of Azerbaijanis living in Yerevan and surrounding areas.

The article talks about the struggle of "Lek-Lek", our first Turkish-language press magazine published in Western Azerbaijan, and its supporters for the development of education, the influence of the magazine on the ideas of progress, freedom and democracy of that period, and the delivery of literary thought to readers in the form of satire and humor. The activity of the founder of the magazine, Jabbar Askarzadeh, in the environment of Yerevan, is relevant both as a historical experience and as a factor in the enrichment of the landscape of our pedagogical thought, and deserves to be the subject of new researches.
***Key words:*** *Science, Azerbaijani language, Lak-Lak, West Azerbaijan, enlightenment.*

**Аннотация.** Азербайджанская интеллигенция сыграла важную роль в развитии образования и культуры в Иреване, одном из древнейших азербайджанских краев. Этот город считался одним из ведущих научных центров своего времени, а также одним из важных очагов просветительского движения. Роль образованных азербайджанских интеллигентов и ученых в формировании педагогической среды Еревана неоспорима.

В данной статье рассматривается значение сатирического журнала «Лек-Лек» в истории азербайджанского просвещения и печати. Журнал «Лек-Лек», оставаясь верным традициям «Моллы Насреддина», способствовал развитию национального образования и школ на родном языке в Азербайджане. Журнал, наряду с критикой отсталости и неграмотности в сатирической форме, также освещал политические и социальные процессы, происходившие в обществе.

Основной целью проведения исследования была оценка общественно-политической обстановки периода издания журнала, влияния содержания журнала на общество и роли, которую он играл в распространении идей просвещения. В данном исследовании были использованы качественные методы исследования для анализа роли журнала «Лек-Лек» в сфере просвещения и образования. Исследование основывалось преимущественно на историко-социологическом подходе, а тематика журнала, общественно-политическая ситуация того периода, а также его роль в истории азербайджанской прессы изучались с помощью метода источниковедческого анализа. В рамках исследования сатирическое содержание журнала и его влияние на социальные изменения были изучены посредством дискурс-анализа, а также с точки зрения традиций просвещения. Кроме того, были привлечены результаты исследований, проведенных в области истории прессы, для оценки социально-культурных условий периода существования журнала, его уникальных особенностей и влияния на формирование национальной идентичности.

***Ключевые слова:*** *наука, азербайджанский язык, Лек-Лек, Западный Азербайджан, просвещение*

Qədim Azərbaycan torpağı olan İrəvanda maarifin, mədəniyyətin inkişafı uğrunda xalqımızın peşəkar müəllimləri, elm adamları, ictimai xadimləri vətəninə və xalqına layiqincə xidmət etmişlər. Həmin ziyalılarımızın sayəsində Azərbaycanın aparıcı elm mərkəzi İrəvan şəhəri olmuşdur. Məhz buna görə də, mədəniyyətimizin, milli təhsilimizin inkişafında və öyrənilməsində İrəvanın maarifçiliyinin, İrəvanda nəşr olunan mətbuat orqanlarının xüsusi əhəmiyyəti vardır.

İrəvanda pedaqoji mühitin formalaşmasında Azərbaycanın görkəmli elm xadimlərinin, savadlı, elmli ziyalılarımızın rolu danılmazdır. Görkəmli maarifçilərimizin tükənməz səyi nəticəsində bir çox yerli qəzet və jurnallar işıq üzü görmüşdür. İrəvanda bədii fikrin, ictimai-siyasi mühitin canlanmasında və inkişafında bir sıra mətbuat orqanlarının mühüm rolu danılmazdır. Onlardan biri də “Molla Nəsrəddin” jurnalının ənənələrinə daim sadiq qalan, özünü onun davamçısı adlandıran, ilk türk dilli mətbuat abidəsi kimi İrəvanda nəşr olunan “Lək-lək” (Leylək) satirik jurnalıdır. Jurnal nəşr olunduğu müddət ərzində Azərbaycanda milli təhsilin, ana dilli məktəbin və maarifin inkişafına xidmət etmiş, jurnalın əsas ideyası azadlıq, tərəqqi və demokratiya olmuşdur. “Lək-lək” çi maarifçilər də sosial mənşəcə sadə, kasıb və yoxsul kütləyə müraciət edən, daim onların yanında olduqlarını hiss etdirən mütərəqqi ziyalılar idilər. “Molla Nəsrəddin”də olduğu kimi, “Lək-lək”də də ən çox əhəmiyyət və diqqət verilən məsələlər, ilk növbədə çatışmazlıqlar, dini-xurafat, siyasət, maarif, ədəbiyyat, xüsusən də gənc nəslin təhsili və qadınlara münasibət müəyyən qədər öz həllini tapmışdır. Jurnalın redaktoru Cabbar Əsgərzadənin əsas məqsədi satirik dillə İrəvanın mədəni mühitini, məktəbsiz qalan kənd və şəhərlərini acı gerçəkliyi ilə əks etdirmək idi.

Xələfi “Molla Nəsrəddin” kimi “Lək-lək” də satirik yumor dili ilə geriliyi, savadsızlığı daim tənqid hədəfinə çevirmişdir. Jurnalın bütün nömrələrinin üz qabığında abunə qiyməti və mündəricatı və s. ilə yanaşı, yazıların qəbulu üçün bir neçə şərt də qoyulurdu. Onlardan biri də gələn yazıların açıq türk dilində olması idi. Bu yolla onlar ana dilinin inkişafına öz töhfələrini verirdilər. Ana dilinin inkişafı eyni zamanda ana dilli təhsilin, maarifin, elmin inkişafı demək idi. Tək təhsil uğrunda yox eyni zamanda siyasi-demokratik mövzuları da ürək ağrısı ilə dilə gətirən jurnal ermənilərin xalqımıza, soydaşlarımıza etdiyi qəsdləri, haqsızlıqları da açıqca tənqid atəşinə tutmuşdur.

Köhnə üsullu məktəblərin artıq gənclərə fayda vermədiyini, yeni üsullu məktəblərə ehtiyac olduğunu və bu məktəblərdəki qüsurları,

çatışmazlıqları satirik dillə xalqa çatdıran jurnalın maarifçiləri təhsil və inkişaf məsələlərini daim diqqət mərkəzində saxlamış, xalqımızın cəhalətini ürək yanğısı ilə dilə gətirmişlər.

Təhsillə bağlı satirik yazılar daha çox atanın oğlu ilə, ananın qızı ilə söhbəti, şəklində verilmiş və övladlarını təhsil, elm, məktəb bəlasından xilas etməyə çalışan valideynlərin onları doğru yola çəkmək üçün dəridən-qabıqdan çıxmasını dilə gətirmişlər. Ataların oğlunu mərd, yolkəsən, qumarbaz, arvaddöyən kimi görmək arzusunu, anaların qızlarını pullu, yaşca ondan böyük, şivə saqqalı, imanlı, mömin Hacı Səfərlərə vermək arzusunu dilə gətirmişdir. Həmin yazılar vasitəsilə təhsilin cəmiyyət üçün əhəmiyyətini göz önünə qoymuş və elmin xalq üçün nə qədər əhəmiyyətli olduğunu sətiraltı fikirlərlə çatdırmışdır. Bizə elmli cəmiyyət ona görə, lazımdır ki, atalar oğlunun qumarbaz yox, təhsilli bir vətənpərvər igid olmağını arzulasın, analar qızlarını ərə verməyi yox, cəmiyyətinə faydalı, gələcəyin təhsilli anası olmağı arzulasın.

Jurnalın ikinci nömrəsinin "Ədəbiyyat" adlı satirasında Həzif bir atanın oğluna nəsihətində, məktəbdən heç kimə xeyir gəlmədiyini, yolkəsən olmağın faydalarını satirik dillə aşağıdakı kimi yazmışdır:

Amandır, eil məktəbdən demə bir söz mənə, oğlum,
Zərərdən başğa şey yox ta gələ ondan sənə, oğlum.

Mənim sən bircə oğlumsan, qolumsan, pəhləvanımsan,
Səni məktəb sıxar, oğlum, mənim şiri-jiyanımsan.
Əzizim, nuri-didəm! Qəmküsarım. Ruhi-canımsan,
Məktəbdən gəlib insana yüz dərd-bala, oğlum.
Amandır, eil məktəbdən demə bir söz mənə, oğlum.

Qoçaq ol, rəhrəvan ol, qorxma div, əjdəhalardan,
Düşünmə saqma canin, göylərə qalxan nölərdən,
Gedib yolkəsənnən talan gətir xandan, gədalardan,
Başından harda görsən, bas fəqir, binəva, oğlum.
Amandır, eil məktəbdən demə bir söz mənə, oğlum [1].

Jurnalın onuncu nömrəsində isə yenə "Ədəbiyyat" "Ana və qız" satirasında yazılır:

Sözümü mənim yaxşı dinlə, qızım,
Sənə bir gözəl, nazlı ər tapmışam.
-Ana, getmirəm, getmirəm, getmirəm!
Özüm ki mənim elimli bir qızam,
Özümə də bir alim nər tapmışam.
-Qızım vermirəm, vermirəm, vermirəm!
-Bu çox pulludur, mallıdır, ballıdır,
Yağun salıbdır, şivə saqqallıdır.
-Ana, uymaram, uymaram, uymaram! [1]

Jurnalın ikinci nömrəsinin "İrəvan xəbərləri"nin I hissəsində isə milli məktəbin açılması məsələsinə toxunur, ana dilli təhsilin əhəmiyyəti acı bir dillə ifadə edilir.

"Hələ cəmiyyəti-xeyriyyə açacağı milli məktəbin xüsusunda heç bir yerdə əlaqə dutmayır. Hələ də məsələ ikiüzlü və rəylər müxtəlifdir; ayə o məktəbdə rus dilinə əhəmiyyət verməli ki, oradan çıxan şagird gimnaziyaya gedə bilsin. Yainki qonşumuz ermənilərin (Duxovni seminariyası) kimi olsun ki, bütün oranı qurtaran şagirdləri heçbircə yerə qəbul etməsinlər, aclarından ölsünlər.

Sual-istezaya nə səbəb olur?

Cavab-Arif bir söz olmasa 2 söylə qanar" [1].

Həmin dövrdə ana dilli məktəbin və ana dilli dərsliyin azlığına görə azərbaycanlı maarifçilərin işi nə qədər ağır və məsuliyyətli idi. Jurnalın ətrafında toplanan maarifpərvər ziyalılarımız çox yaxşı bilirdilər ki, cəmiyyətin hər bir üzvünün şəxsiyyət kimi formalaşması və inkişafı məhz təhsildən başlayır, təhsil və tərbiyə isə məktəbdən başlayır. Məhz bu səbəbdən yeni ana dilli məktəblərin açılması üçün əllərindən gələni edir, gənc nəsli elmə yönəldirdilər. "Lək-lək"in qələm sahibləri öz qüvvələrini xalqın mədəni geriliyinin aradan qaldırılması, maarifli cəmiyyət yaranması yolunda mübarizəyə sərf edirdilər. Qərbi Azərbaycanda öz xalqının gözünün açılmasına, onun milli şüurunun formalaşmasına xidmət etməyə çalışan jurnalın ömrü az olsa da o müəyyən mənada məqsədinə nail oldu. Jurnal son günədək xalqına, vətəninə layiqincə xidmət etmişdir.

İrəvanda ilk Azərbaycan dilindəki mətbuat abidəsi "Lək-lək" "Molla Nəsrəddin" ənənələrinə sadiq qalaraq xalqa səsləniş öhdəliyini öz üzərinə götürmüş sayılırdı. "Lək-lək" in xalq qarşısındakı xidmətləri tarixi əhəmiyyət daşıyır. Çünki jurnal nəşr olunduğu müddətdə azadlıq, tərəqqi, demokratiya ideyalarını layiqincə təmsil edirdi. O bu əhatəli məzmunu sayəsində azərbaycanlılar içərisində tanınan nəşrlərdən biri oldu.

Tədqiqatın araşdırılmasında ilk növbədə tarixi-mənbəşünaslıq metodu tətbiq olunmuşdur.

Bu çərçivədə "Lək-lək" jurnalının mövcud nömrələri, o dövrdə dərc olunan digər Azərbaycan və xarici mətbuat nümunələri, arxiv materialları, eləcə də dövrün maarifçilik hərəkatı ilə bağlı tədqiqatlar araşdırılmışdır. Bu metod sayəsində jurnalın nəşr olunduğu dövrün tarixi konteksti daha ətraflı öyrənilmiş, jurnalın dövrün ictimai və siyasi həyatına təsiri müəyyən edilmişdir.

Bundan əlavə, diskurs analizi metodu istifadə olunaraq jurnalın məqalələri, satirik yazıları və maarifçilik ideyaları araşdırılmışdır. Jurnalın dil və üslub xüsusiyyətləri, onun hansı ictimai qruplara xitab etməsi, tənqid etdiyi mövzular və təqdimetmə forması təhlil edilmişdir. Xüsusilə, "Lək-lək" jurnalında milli kimlik, təhsil və ictimai tənqid mövzularının necə əks olunduğu araşdırılmışdır.

Tədqiqatda həmçinin sosioloji yanaşma tətbiq edilmişdir. Jurnalın dövründəki ictimai və siyasi vəziyyəti daha dərindən dərk etmək üçün maarifçilik hərəkatının o zamankı sosial quruluşdakı rolu, milli məktəblərin inkişafı və jurnalın bu prosesə təsiri nəzərdən keçirilmişdir. Bunun üçün dövrün təhsil sistemi, o cümlədən köhnə üsullu və yeni üsullu məktəblər arasındakı fərqlər araşdırılmış, ana dilli təhsilin yayılmasında jurnalın rolu qiymətləndirilmişdir.

Eyni zamanda mətbuat tarixi metodu tətbiq edilərək jurnalın Azərbaycan mətbuat tarixindəki mövqeyi araşdırılmışdır. Jurnalın "Molla Nəsrəddin" ənənələrini davam etdirməsi, onun digər dövri nəşrlərlə müqayisədə fərqli və ya oxşar cəhətləri müəyyən edilmişdir. Bunun üçün həmin dövrdə nəşr olunan digər mətbuat orqanları ilə "Lək-lək" jurnalının ideya və üslub baxımından müqayisəli təhlili aparılmışdır [4].

Bu metodlar əsasında aparılan araşdırma nəticəsində "Lək-lək" jurnalının Azərbaycan maarifçiliyi və milli təhsilin inkişafında oynadığı mühüm rol daha sistemli və obyektiv şəkildə qiymətləndirilmişdir.

Aparılan tədqiqat nəticəsində məlum olmuşdur ki, "Lək-lək" jurnalı XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan maarifçiliyinin və milli mətbuat tarixinin mühüm bir hissəsini təşkil etmişdir. Jurnalın fəaliyyəti dövründə əsas məqsədi cəmiyyətdə maarifçilik ideyalarını yaymaq, savadsızlığı və geriliyi tənqid etmək, milli kimliyin formalaşmasına töhfə vermək olmuşdur.

Tədqiqat nəticəsində diskurs analizi, tarixi-sosioloji yanaşma və mənbəşünaslıq metodları vasitəsilə jurnalın məqalələrində istifadə olunan satirik ifadələrin, dil xüsusiyyətlərinin və ideoloji mövqeyinin dövrün sosial və siyasi konteksti ilə sıx bağlı olduğu müəyyən edilmişdir. Jurnalın milli dilin inkişafına verdiyi töhfə, yeni üsullu məktəblərin yaradılmasına yönəlmiş çağırışları və xalq arasında maarifçiliyin təşviqi baxımından mühüm əhəmiyyət daşıdığı aşkar olunmuşdur.

**Problemin aktuallığı.** Təhlil metodu tətbiq olunaraq jurnalın çap edildiyi tarixi dövrün sosial, siyasi və mədəni şəraiti nəzərə alınmışdır. "Lək-lək" jurnalının dövrün əsas ictimai problemlərinə yanaşma tərzi, maarifçi ziyalıların bu nəşr vasitəsilə hansı ideyaları təbliğ etməyə çalışması və jurnalın maarifçilik baxımından təsiri kontekstual olaraq dəyərləndirilmişdir.

**Problemin elmi yeniliyi.** Araşdırma göstərir ki, jurnalın satirik üslubu vasitəsilə cəmiyyətin sosial və təhsil sahəsindəki çatışmazlıqlarını tənqid etməsi onu maarifçilik hərəkatının önəmli bir vasitəsinə çevirmişdir. "Lək-lək" təkcə təhsil problemlərini gündəmə gətirməklə kifayətlənməmiş, həm də qadın hüquqları, dini xurafat, sosial ədalətsizlik və milli şüurun inkişafı kimi məsələlərə toxunmuşdur. Bu da onun maarifçi ziyalılar tərəfindən böyük əhəmiyyət daşıyan bir nəşr olduğunu təsdiqləyir.

**Problemin praktik əhəmiyyəti.** "Lək-lək" jurnalı qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq dövrünün mühüm mətbu orqanlarından biri kimi xalqın maariflənməsi və milli şüurun formalaşması işində əhəmiyyətli rol oynamışdır. Onun maarifçilik və milli təhsil məsələlərinə dair irəli sürdüyü fikirlər XX əsr Azərbaycan mətbuatında davam etdirilmişdir ki, bu da jurnalın təsirinin uzunmüddətli və dərin olduğunu göstərmişdir.

## Ədəbiyyat:


1. Mustafa, N. Y ( Nazim Mustafa) İrəvan Şəhəri. -Bakı: Red N Line. MMC-, -2020. -292 s.
2. Məhərrəmov, Z. İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi-mədəni mühit). -Bakı: Nurlan, -2010, -320 s.
3. Cəfərov, C.Ə. Allahverdiyev C. V. İrəvanda milli maarifçilik mühiti. -Bakı: Şərq-Qərb, -2017, -440 s.
4. Rüstəmov, F. A. İrəvan Müəllimlər Seminariyası və onun məzunları. - Bakı: Elm və təhsil, -2022. -240 s


**Redaksiyaya daxil olub:** 15.09.2025.